# ÖLDÜRMƏYİN BU DAŞI

ŞEİRLƏR

# ƏZİZ SƏLAMİ

2007-2009

Şəkil: Tərpəniş

A. Ştifter

İÇİNDƏKİLƏR:

*GÖZLƏRİMİ YUMUNCA*


| | |
|---|---|
| GÖRÜNMƏYƏN QUŞ | 6 |
| QAYA | 7 |
| GÖZLƏRİMİ YUMUNCA | 8 |
| HƏR NƏ YOL OLSUN | 9 |
| HANSI MEYVƏ | 10 |
| SARI ZAMAN | 12 |
| BİR AXŞAM | 13 |
| HƏLƏ GÜNƏŞLƏRİMİZ OLACAQ | 15 |
| GÖZLƏR | 16 |
| QURD | 17 |
| BİR SALXIM ÜZÜM | 18 |
| NƏ ZAMAN? | 20 |
| GÜLƏN ADAM | 21 |
| BİR SƏHƏR | 23 |
| DİLSİZ GÜN | 24 |
| QOVUN | 25 |
| ALMALAR DANIŞARKƏN | 26 |
| SOYUQLARDA | 28 |


*QIRMIZILARDAN*


| | |
|---|---|
| XALQINI SEVƏN PADŞAH | 30 |
| BİR BUĞDA BOYDA | 32 |
| QIRMIZILARDAN | 33 |
| AXŞAMIN KƏNDİ | 34 |
| MORLARDAN | 35 |
| SAYĞI | 37 |
| QIRIQ KÜP | 38 |
| QARĞA DİLİ | 40 |
| KOMA | 41 |

BAŞLAYAN YOL 42

*GÜLBƏSƏRLİ, ULDUZLU NAĞILLAR*

GÜLBƏSƏRLİ, ULDUZLU NAĞILLAR 44
YAĞARDI QAR 46
SİLİNMƏYƏN 47
OYUNDAŞIM 48
KEÇDİKCƏ İLLƏRDƏN 49
İLKİN TOP 51
ŞAHLAR ŞAHI İLƏ QADIN 52

*BİR ŞƏKİL UZAQLARDA*

GƏLİN KEÇİN 54
BİR ŞƏKİL UZAQLARDA 55
SUGÖZLÜ GÜNLƏR 56
AĞDUMANLI DAĞLAR 57
BİR GÖRÜNÜMÜN İKİ ZAMANI
1 58
2 59

# GÖZLƏRİMİ YUMUNCA

## GÖRÜNMƏYƏN QUŞ

Dostum Qadir üçün

Oturmuşdum su başında
Dinləyirdim suyu
Gözlərim yumulu,
Bir quş ötürdü, dinləyirdim
Onu da görmədən,
Su aparırdı içimi
Doldurmuş ağır daşlarımı,
Artıq görə bilirdim yosunlarımı,
Və ölgün balıqlarım canlanmışdı
Keçirdilər yaşıl yosunlarım arasından
Duyurdum dərimin altında
Yumşaqca  oynadıqlarını,
Hər yerim dumduru durulmuşdu
Hər nəyim axar olmuşdu,
Və görə bilmədiyim o ötən quş
Hər nəfəsində sirli bir məlhəm
Qocaman və yaşıl bir varlıqla
Doldururdu məni.

## QAYA

Səni açmaq istərəm qaya!
Sənə baxmaq istərəm qaya!
Durmuşam önündə, əlim yalın
Səni
        heç yara vurmadan
Bir damarını belə qırmadan
Açmaq istərəm qaya!
Sənə baxmaq istərəm qaya!

Canımda cansızlığından var
Cansızlığında canımdan var
Bir ucun mənə bağlanmış
Və bir ucun
Sonsuzlarda günəşə, aya.

Durmuşam önündə, əlim yalın!
Səni
        heç yara vurmadan
Bir damarını belə qırmadan
Açmaq istərəm qaya!
Sənə baxmaq istərəm qaya!

## GÖZLƏRİMİ YUMUNCA

Gözlərimi yumunca
Açılar gözlərim,
Yumulu gözlərimin ardında solan dünya
Görünməz cizgilər və rəngləriylə
Açılar gözlərimin qabağında,
Hər nə öz yerində
Hər nə başqa amma,
Qurtararam əllərimi öz əsarətimdən
Buludların üstündə qanadlanıb
Uçduqları an
İçimdəki bir zəncirin
Qırıldığını dinləyərəm,
Bir quşun köksündə mürgüləyən
Mahnısını görərəm,
Dönərəm bir dağın çox uzun yaşından özümə,
Bir heyvan səsləyər adımı, diksinmərəm,
Yollarım bağlanarkən
Daşlar yol verər mənə öz içindən,
Ay doğar
Kimsəyə görünmədən,
Qoyaram başımı dizinə ağlaram,
Və Odysseenin başından keçənləri
Sənin o sonsuz gözlərində başlaram
Sən ey bir yuxuda, bəlkə də bir gün oyaqkən
Görüb itirdiyim!

## HƏR NƏ YOL OLSUN

Hər nə yol olsun istərəm,
Yolumun üstündə duran
Bu ağac
Bu qaya
Yol olsun istərəm,
Gələn uzaqlardan
Gedən uzaqlara.

Hər nə yol olsun istərəm,
Hər gecə yatdığım bu yataq
Yol olsun istərəm
Açılsın yumulmasından göz qapaqlarımın
Uzansın
O qərib dünyalara.

Hər nə yol olsun istərəm,
Cəsədim belə yol olsun istərəm
Keçsin böcəklərdən
Çiçəklərdən
Keçsin ana torpağın ürəyindən
Qovuşsun
Sonsuzlara.

Hər nə yol olsun istərəm.

HANSI  MEYVƏ

Az olmadı
Daddığım
Meyvələrini dünyanın.

Əriklər yedim
Ayıların çox sevdiyi,
Yanaqları qırmızı
Şirin közlər kimi.

Armudlar yedim
Sapsarı,
Yeməkdən daha çox
Qucaqlamaq üçündü
Yaşıl yarpaqlar arasında.

Gilaslar yedim
Yeməli deyil, baxmalı
Tanrısal sırğalar kimi
Gözəl bir tanrıçanın
Qulaqlarından asmalı.

Qarpızlar yedim
Kəsilincə
Oxuyarlar
Torpağın qırmızı və şirin mahnısını,
Günəşdən sərinlik əmərlər
Cırhacırında yayın.

Portağallar yedim
Soyulduqca

Portağal qoxuyar yağan qar da
Portağal boyda günəşlərlə dolar otağın da.

Üzümlər yedim
Hər giləsi
Bacchusun sərxoş nəfəsiylə dolu,
Söylər bizə gündüzləri
Gecələr boyunca ayın
Uzaq dərələrlə gizli
Və şirin görüşlərini.

Unudur insan hər nəyi
Unudur belə
Unuda bilməyəcəyi.

Nəydi adı,
Hansı meyvə
Ki bir kərə
Ancaq bir kərə
Dodaqlarından dərib daddığım
Və bir daha
Unutmadığım?

## SARI  ZAMAN

Süpürülən xəzəl səsi gəlir yenə də.

Zaman boşaldır bütün rənglərini
Hər nəyi saran sonsuz bir sarıya.

Nə gözəldir ölümü yarpaqların!
Qanadsız uçurlar
Öz yoxluqlarına
Ki anasıdır yeni bir həyatın.

Sarı bir dillə danışır bütün yollar.

Dalmış dərin düşüncələrə
Yollar üstündə duran
Hündür, qocaman
Sarı saçlı
Sarı saqqallı filosoflar.

Sarı bir tonqal yanır hər yanda
Sarı tüstülər daşıyır əsən ruzgar.

Sarı bir at qaçır dördnala.

Gözlə bir az!
Dönəcək yenə bəmbəyaz
Və gətirəcək nağıldodaqlı o gözəli.
Ardınca sürünən
Uzun
Və bəyaz donu
Örtəcək bütün yollarımızda ləkələri.

BİR  AXŞAM

Fərhud üçün

Pəncərəm heç açılmadan
Qapım heç çalınmadan
Bir son bahar axşamı gəlir yanıma.

Aladır iri gözləri,
Şəffaf
titrək
və incədir
Hər nəyi bürüyən bədəni.

Əyilib baxır ruhumun ta dibinə,
Və bu an
Bir ayrılıq hüznüylə
Bir görüş şirinliyi yayılır içimə.

Açaraq siyirməni
Bir qutu kibrit alır oradan,
Əyilib yandırır
Masamın üstündəki mavi şamı,
Sonra götürür rəfdən çox sevdiyim bir kitabı
Gətirib verir mənə.

Bir ayrılıq hüznüylə
Bir görüş şirinliyi içindəyəm.

Nə pəncərəm
Nə qapım
açılmadan

Uzaqlaşır məndən yavaş-yavaş,
Görürəm ardınca qalan
Qaranlıq
          ləpirlərini
                    hər şeyin
                              üzərində.

## HƏLƏ GÜNƏŞLƏRİMİZ OLACAQ

Son günəş deyil
Göz qapaqlarından axıb
İçində qərib bir dünya açan
Bu sarı son bahar günəşi.

Hələ ağ günəşlərimiz olacaq
Hələ yaşıl günəşlərimiz olacaq
Hələ qızıl günəşlərimiz olacaq.

Qapanmış deyilsə əgər
Göz qapaqlarından ruhuna
O gedən yol,
Son günəş deyil
Bu sarı son bahar günəşi,
Bir-birindən gözəl
Hələ günəşlərimiz olacaq!

# GÖZLƏR

Bir göz qırpımında oldu olan,
Bir də baxdım ki
Nə hündür binalar var
Nə yollar var
Və nə yolları dolduran
Gurultulu arabalar.

Üfürülüb söndürülən bir şam kimi
Sehirli, görünməz dodaqlar üfürüb
Söndürdü insanlardan gələn
Bütün işıqları.

Yalnız o gözlər oldu qalan,
Rahatlanan göylərlə
Qurtulan
Yer üzünün arasında.

## QURD

Gecə oldumu
Ay doğdumu
Düşdümü səslərin sonuncu daşı
Dərinləşən səssizliyin içinə
Çıxırdı qaranlıqdan
Keçərək ay işığında
Ucalan şamların altından
Gəlib dururdu orada,
Uzadaraq boynunu
Qaldırırdı başını
                    aya doğru,
Və ulayırdı uzun-uzun
Açırdı ruhunu.

Səssizlik daha da dərinləşirdi,
Və səslərin o sonuncu daşı
Daha da dalırdı diblərə.

Sonra yenə
Dönürdü səssizcə,
Keçərək ay işığında
Ucalan şamların altından
Qarışırdı qaranlığa.

Və sabah
Bütün insanlar kimi o da
Dururdu yatağından
Və gedirdi
İş-gücünün ardınca.

## BİR SALXIM ÜZÜM

Mən bu əlimdəki
Bir salxım üzümə baxmaqdan doymaram,
Hər gilənin üstündəki toza bənzər
Bu örtüyü sildikcə işıqlanar
Bu salxım da,
Dişlədikcə hər giləni
Fışqırıb doldurar ağzımı
Yağmurların şirinləşmiş damlaları,
Və görünər uzaqlardan
Gələn şərabın sərxoş qaraltısı.

Mən bu salxıma baxmaqdan doymaram,
Gözlərim ağzımdan qabaq yeyər
Hər giləni,
Və yedikcə çoxalar,
Bir salxım dönər salxımlara
Qısılar meynlərdə yarpaqlara,
Açıb kəhrəba və mor dodaqlarını
Əmər uzaq ulduzların, ayın sərin südünü,
Və əmərkən günəşin odlu məməsindən
Dolar damla-damla
Uyuyan qanadlarla.

Mən bu üzüm salxımıyla böyüdüm,
Yaşadım zamanın ən çılpaqlığını,
Geyindim qarı əynimə,
Qucaqladım yağan
Hər damla yağmuru,
Dərimdən gəlib keçməyən
Bir külək olmadı,

Günəşlə doğdum hər səhər,
Və doldum axşamları
Günəşin qoyub getdiyi qaranlıqla.

Mən bu bir salxım üzümlə
Damla-damla
Diriltmək istərəm ölü bir
Şərab küpünü,
Və bir dünya yaratmaq istərəm
Dolduğum
Saxsı qabda.

## NƏ ZAMAN?

Öldürməyin bu daşı!
Görmürsünüzmü
Döyünür ürəyi?

Daşların ürəyi yoxmudur?

Nə zaman onu siz
Eşitmək isdədiniz?

Oyatmayın bu daşı
Şirin yuxusundan!

Daşların yuxusu
Yoxmudur?

Nə zaman onu siz
Bilmək istədiniz?

## GÜLƏN ADAM

Aziz Nesini düşünərkən

Ölərkən
Baxıb dünyaya
Gülürdü.

Niyə gülürsən sordular,
Yelləyib başını
Bir şey söyləmədən
Gülürdü.

Sonra bir tabut gətirdilər,
Uzadıb onu içinə
Apardılar son evinə.

Yol boyu ayələr oxuyub
Çığırırdılar,
Titrədirdi tabutu çiyinlərdə,
Gülürdü.

Qoyaraq bir qəbirə
Basdırdılar torpaqla üstünü,
Sonra döndüdlər evinə,
Bir səs gəlirdi
Arxadan,
Onun səsi,
Gülürdü.

Yeyildi
İçildi
Dualar oxundu

Rəhmətlər deyildi,
O artıq yoxdu
Amma,
Gülürdü.

Dolaşıb
Gəzdilər ömrünün
Yaşanmış günlərini.

Aclıq günlərini gəzdilər,
Uzadıb başını yırtıq yaxasından
Gülürdü.

Dustaqlıq günlərini gəzdilər,
Boylanıb barmaqlıqlar ardından
Gülürdü.

İşsizlik günlərini gəzdilər,
İşsizlər sırasından baxırdı çomaqlı polislərə,
Gülürdü.

Onunla olan bir-bir
Xatirələrdə dolaşdılar,
Hər birindən
Baxıb baxıb
Gülürdü.

Nə qədər həsrətli xatirələr qaldı ondan!
Onlar dolaşdıqca
Dolurdu ürəkləri,
Və onların göz yaşlarını
O doldurub içinə
Gülürdü.

## BİR SƏHƏR

Ev istisə
Nə qorxu
Pəncərə ardında
O gömgöy
          o iti
             o acı dişlərdən!

Zamanla bir yaşda
Qocaman
Bir kişi keçir bu yerlərdən,
Lopa bığlarında
Naxış-naxış
Donmuş ulduzlar,
Və qar qoxuyur o uzun
Çallanmış saqqalı.

Qaldırıb qollarını
Qoparmaq istəyir
Gecə donmuş
Göyə yapışmış ayı,
Qopara bilmədən
Gedir yolunu
Və ardınca
Donur
Ləpirləri.

## DİLSİZ GÜN

Dilsiz qaldı bu gün
Heç nə söyləmədi,
Bir qarğanın bir an qarıltısı
Və bir quşun
Uzaq çığırtısı oldu ilk sözü
Və son sözü oldu bu da.

Keçdi buludlarla
Ormanda yollarla
İnsanlarla
Heyvanlarla.

Olduğum hər yanda
O da vardı,
Gəl ki heç nə danışmadı
Gəl ki dodaqları
Bir açılmadı,
Gördüm axşamın gəlməsini
Görə bilmədim
Nə zaman getdi o,
Doldurub dilsizliyinin ağırlığını
Axşamın qaranlığına
İtdi o.

QOVUN

Danışırdı...

Şirin bir qoxudan ağırlaşmış
Keçirdi isti külək bostandan.

Danışırdı...

Torpağın dadını daşıyan su
Ballanırdı dolduqca qovuna.

Danışırd...

Daşaraq ətin şirinliyi
Çat-çat olurdu qabığında.

Danışırdı...

Bir bostanın ləzzəti vardı
Dil açıb danışan bu qovunda.

Danışırdı...

Ah, bıçağın nə olduğunu bilməyən!
Ah, öpüldükcə soyulan!
Ah...

Nə özü vardı artıq nə səsi
Qalırdı qar altında
Uzaqlaşan xatirəsi!

## ALMALAR DANIŞARKƏN

Keçirdim bazarda önündən almaların
Birdən səslədilər məni
Getmə dur dedilər.

Qoxudandır dili almaların.

İnsan insandan öyrənir dilini
Quş quşdan,
Kim öyrətdi olnara bu dili, bilirmisiniz?
Bunu adi bir şey sanmayın, bu bir möcüzədir

Ay gəldi gecələri bağlara
Öyrətdi bəzi sözləri onlara,
Bu dilin ən işıqlı, ən isti sözlərini
Günəş oldu öyrədən,
Hələ torpağın, yağışın, ruzgarın
Az olmadı bunda payı,
Hələ nələrin, nələrin...
Kim bilir?!

Almaların yanında salın yerimi
Sussun bazarın dilləri də!
Almalar danışsın səhərə kimi
Almalar doldursun səssizliyimi.

Ey almaların səsini eşidə bilən!
Ey almalar danışarkən
Dalan röyalara!

Ey almaların gözləriylə baxan üzümə!
Səsin olsun məni oyadan
Altında bir ağacın!

## SOYUQLARDA

Hər vaxt soyuq olanda gəlirsən
Durursan ardında qapımın
Açıram qapını və sən yoxsan!

Yayın cırhacırında donar sular
Rədd edər ayaqlarımı bütün yollar
Əllərim əlcəklərimi dondurar
Duyaram qapımın ardında olduğunu
Açaram qapını və sən yoxsan!

Qəribə bir fəsildir bu!
Ayrılmış bütün fəsillərdən
Durmuş vaxtın varmadığı bir yerdə,
Və zaman-zaman
Gəldiyi bir ölkə var
Ki mənəm.

Hər vaxt soyuq olanda gəlirsən
Durursan ardında qapımın
Açıram qapını və sən yoxsan!

# QIRMIZILARDAN

# XALQINI SEVƏN PADŞAH

Qəribə nağılları var dünyanın
Onlardan biri də
Bir padşahla bağlıdı.

Gözəl bir saray tikdirdi bir padşah,
Saray nə saray!
Tanrıların
Olduğu göylərdə başı,
Və xalqa yasaq
Bir cənnətin
Qoynunda ayaqları.

Dağlardan
Qaçarların,
Ormanlardan
Uçarların,
Dadlı ətiylə bəzəndi zəngin süfrələr,
Qədəhlər gəzdi əllərdə
Qıpqızıl,
Gülüzlü rəqqasələr
Oynayan
Pərilərlə doldurdu
Sarayın
Nağılqoxulu boşluğunu.

Yeyildi
İçildi
Mədhlər edildi
Və sonra
Padşaha söz verildi:

“Dəyərli paşalar, xanlar!
Bu sarayı tikdirməkdən
Bu oldu niyyətim,
İstədim ki
Bu ölümlü dünyada
Xoş yaşasın
Mənim xalqım da!“

“Eşq olsun kökmdara!
Eşq olsun hökmdara!“

Dalğa-dalğa
Keçdi sarayı
          sarmış
                    səssizliyin
                              üzərindən.

## BİR BUĞDA BOYDA

Əzər içimi
Bilirmisən?
Əzər içimi ağırlığı ormanların,
Əzər içimi ağırlığı yolların, tarlaların
Kəndlərin, şəhərlərin
Və bütün
                    aramızda olanların,

Əzər içimi
Bilirmisən?

Dursam üstündə buludların
Baxsam uzaqlara
Görə bilməm ki bir buğda boyda səni!

Əzər içimi ağırlığı
Bilirmisən?
Əzər içimi ağırlğı
Məsafələrin.

## QIRMIZILARDAN

Öyrəndim qırmızını sevdiyini,
Doğan günəşlə
Gəldiyini,
Batan günəşlə
Getdiyini.

Bir od yanar
Ta uzaqlarımda gurul-gurul,
Öyrəndim
qırmızılarından
keçdiyini!

Qırmızılar var
Doldurmuş
dərinlərini
kosmosun,
O qırmızılarda aç gözlərini
O qırmızılarda səslə məni.

Bir dünya var
Döyünər köksündə
qırmızı,
Ondan uzaq
Bir mavi kimi
Üzərinə sər məni.

## AXŞAMIN KƏNDİ

Uzun bir sözün sonuna
Qoyulan bir nöqtə oldu
Ağır-ağır
O qovağa
Qonan
Qarğa.

Azmasın deyə gecə yolunu
Gətirsin deyə dağlardan
Şirin yuxunu
Evlər
Birər-birər
Yandırdı işıqlarını.

MORLARDAN

Nədir adı
Otlarda gülümsəyən
Bu mor çiçəklərin?

Arabir
Gördüm onu morlarda,
Və görüncə
Güclü bir
Sehirli bir
Ruzgar qopdu içərimdə
Mor rəngdə.

Bir də baxdım ki bir yolam,
Özüməm
Yolçusu özümün,
Ardımda yolluğumdan
                                        bir iz buraxmadan
Çapdım dördnala
Və çatdım hər birində
                                        ayrı bir mor olan
O çox gözəl çiçəklərə.

Kiçik balıqların
Doldurduğu tək
Böyük balıqları
Doldurdu məni
Onun da morları,
Ən gözəl mor çiçəkləri dünyanın
Yeni bir
İri bir

Mor çiçək oldu içərimdə,
Qoxuyan
Və qoxuduqca bayıldan ruhumu.

## SAYĞI

Xor baxmayın bu böcəyə!
Çiçəyin dilində danışır bir baxın
Nəsə vızıldayır çiçəyə.

## QIRIQ KÜP

1

Nə zamandan qaldığını bilmədim heç
Sormadım anamdan da,
Durardı bir bucağında boş otağın
Qırılmışdı bozağından
Bir azı da,
Qalırdı dibində qırılmış parçası.

Nə qədər çəkdim rəsmini!
O boş otağın içindəki
İşıqları, kölgələri
O küpün saxsı boğazında, qollarında
O böyük qarnında və dibindəki
O qırıq parçasında öyrəndim.

İri-iri kağızlarda
Durdurdum zamanı
Kölgə-kölgə
İşıq-işıq
O rahatlıq verən küpün
Torpaq varlığında.

2

Zaman-zaman
Açılar qarşımda qapısı
O boş otağın,
Durar bir bucağında o qırıq küp
İşıqlar içində, kölgələrdə,
Süzərəm o küpü, süzdükcə
Gülər qovaqlar altında
Ağsaçlı
          şirindilli
                    Şirin xalam,
Qızılgüllər arasından,
Keçər anam.

## QARĞA DİLİ

Hər nə gözləyərkən gecikmiş baharı
Nə söyləyir
Palıd ağaclarında qarğaların bu qar-qarı?!

Sanmayın ki qar-qar sözlərində qar vardır
Qarğa dilində səsləyir onlar da baharı.

## KOMA

Qaralmasaydı uzaqdan qapısı
Qış qasırğalarının yaratdığı
Qardan bir təpədir deyə düşünərdim.

Biri vardı içində şübhəsiz
Bacasından yüksələn
Tüstüdən görünürdü.

Bir neçə quş ləpiri
Önündəki
Qar üstündə.

Nə bir cığır
Nə bircə iz
Bir insandan.

Döndüm gəldiyim izlərimlə
Düşünürdüm
Orada qalan
                    özümü.

## BAŞLAYAN YOL

Eşidirmisiniz səssizliyin səsini?
O səsin
Səssizliyindən başlar yolum.

# GÜLBƏSƏRLİ, ULDUZLU NAĞILLAR

## GÜLBƏSƏRLİ, ULDUZLU NAĞILLAR

- Süd anam ”Yemən nənə”mi düşünərkən -

Axşam oldumu
Əl-ayaq  çəkildimi
Çöl-bayırdan,
Sığınardıq
Daxmamızın doğma qoynuna.

Anam sərərdi süfrəmizi
Naxışları çoxdan solan
Kilimin üstünə!

Yoxsuldu süfrəmiz
Yeməyilə,
Zəngindi
Anamın sevgisiylə.
Ən ləzzətli nemətə çevrilərdi
Şirin çayımızla
Şor pendirimiz,
Düzülərkən süfrəyə
Anamın əlləriylə.

Sonra çıxardıq dam üstünə
Bir ətək gülbəsərlə,
Nə duru olardı
Nə arı
Tozlu “Aşıq-Dərviş” məhəlləmizin
Gecə göylərinin
İri ulduzları!

Yeyərdik gülbəsərləri
Baxa-baxa ulduzlara,
Sonra girərdik yatağa,
Axarkən ruhumuzdan
Anamın şirin nağılları
Oxşayardı üzümüzü
“Qumlu” dağının
Sərin ruzgarları.

Nə zaman bitərdi nağıllar?!
Bilməzdik!
Bir də baxardıq ki
Özümüzük yaşayan
Onları!

## YAĞARDI QAR

Yağardı qar
Qalardı küçələr qar altında,
Dünyanın ortası olardı kürsümüz,
Sığınardıq ortasına dünyanın!
Bir cığır açılardı
Damımızdan məhəllənin
O yoxsul baqqalına!
Gələrdi şor pendirimiz, ucuzlu çayımız
Oradan,
Yazardı baqqal dəftərinə!

Yağardı qar... yağardı qar... yağardı qar...
Qar qalandıqca damımızda
Qalanardı baqqalın da
Dəftərində borcumuz!
Qaldırardı namaz üstə əllərini
Ta dərindən
Deyərdi anam:
“Şükr olsun sənə
Ey mehriban yaradan!”

## SİLİNMƏYƏN

Uçaqlar keçərdi ucalardan,
Qalardı sonsuz mavilərdə
Uzun, bəyaz quyruqları.
Haradan qalxardılar
Harada enərdilər?!

Xəyal üfüqlərində itərdilər.

Bir gün, bir az iri
Gümüş bir balıq kimi
Bir uçaq gəlib keçdi
Beş yaşımın mavi, şirin göylərindən.

Bütün yaşlarımın göylərindən silinməyən.

## OYUNDAŞIM

Yanırdı balaca yatağında,
Batırırdı qızılca odlu dişlərini
Yaşıdım,
Oyundaşım bacıma.

Oynayardıq ikimiz,
Əyilib baxardıq quyuya,
Qarışarkən qaranlıq sularında
Başımız
Üzümüz bir-birinə,
Səngiyərdi oradan
Bizə doğru uzanan qorxu da.

Apardılar məhəlləmizin məzarlığına
Balaca bir çuxurun
Qoydular qoynuna,
Sonra torpaqla doldurdular.
Yox daşı üzərində,
Yox adı.

Qarışdı bacım,
Oyundaşım
Yaşıdım
Adsızların torpağına.

KEÇDİKCƏ İLLƏRDƏN

Bir gözü az görərdi atamın,
Və bir gözü
Daha az.
Keşkə görə biləydi gözləri qədər
Sevərdi məni.

Qumar sovurmuşdu saçlarından
Qaranı,
Yağmışdı başına
Bəyaz-bəyaz.

Atamı düşünərkən
Tutular gözlərim,
Baxar mənə qaranlıq içindən
Az görən
Çox sevən gözləri.

Heç baxa bilməm bircəcik
Qalmış fotoşəklinə,
İçərəm bir daha
O gündən bəri içdiyim suları,
Acı-acı.

Ağlamışdı, məni
On gün görməyəndə,
Sonralar söylədilər.

Keçən zaman
Quruda bilmədi heç

O göz yaşlarını
Görünməz gözlərimdə.

Bazarda dedilər öldüyünü,
Yəriyərkən
Dəhşətdən başladım qaçmağa
Çığıra-çığıra.

O çığırtım
Tikan-tikan
Səpələndi zamana.
Keçdikcə illərdən,
Toxundu mənə
Qanadım.

# İLKİN TOP

Uzaq deyildi evimizdən
Məhəlləmizin məzarlığı,
Az daş olardı məzarların üstündə
Ad olmazdı daşlarda.

Tək keçərkən kənarından
Bir qorxu da keçərdi mənimlə.

Bir itlər sevərdilər oranı
Bir də məhəlləmizin uşaqları.
Çubuqdan, təpikdən qaçan itlər
Dincələrdilər orada.
Oynayardıq sümüklərlə
Biz məhəllənin uşaqları da.

Oradan gətirdim ilkin topumu,
Oynadım bir neçə gün.

“Bu nədir, ay bala!
Hər nəylə oynamazlar!”

Görüncə anam söylədi.
Qoyaraq bir torbaya
Qaytardı sümükdən, ilkin topumu
Məzarlığa.

## ŞAHLAR ŞAHI İLƏ QADIN

Gəzərkən ölkəmizi,
Saldı mübarək kölgəsini
Bizim də Miyananın üstünə.

Sıyrılaraq
Minlərlə insanın
Və çomaqlı polisin arasından,
Bir yol açmışdı bir qadın
Arabasına şahın,
Atmışdı özünü önünə:

“Yetiş dadıma ey şahım!
Yoxsa keç arabanla üstümdən!
Öldü ərim,
Azyaşlıdır deyə
Qoymurlar ərimin
Yerinə oğlumu
İşləməyə!”

Anlaya bilməsə də qadının dilini
“Verin bu arvadın istəyini!”
Əmr etmişdi şahlar şahı şahımız.

İşləmək haqqı qazandı qardaşım,
Süpürsün deyə küçələri
Verdilər on dörd yaşında əlinə
Atamın uzunsaplı süpürgəsini.

# BİR ŞƏKİL UZAQLARDA

## GƏLİN KEÇİN

Bir ucumdan doğar günəş
Bir ucumda batar günəş.

Gəlin keçin məndən
Ey göylərin mavi və ağ buludları!

Doldurun mənə uzaqları.

## BİR ŞƏKİL UZAQLARDA

Bir şəkil
Alar içinə o günləri
Bir az dumanlı, bir az işıq
Görünər
Uzaqlardan.

Uzun bir divar ayırırdı
Yan-yana düzülmüş torpaq damları
Alma bağından.

Bir sağa baxardıq, bir sola
Gizli-gizli
Dırmaşardıq divara,
Dərərdik o sulu, o yumşaq, o meyxoş almalardan.

Arabir
Cavan bir xərəzi
Gəlib keçərdi oralardan,
Verərdik ona almalardan
Verərdi bizə rəngli, şirin saqqızı.

Bir şəkil
Alar içinə o günləri,
Bir az dumanlı, bir az işıq
Görünər
Uzaqlardan.

Xərəzi:
Xırdavatçı

## SUGÖZLÜ GÜNLƏR

Gözləri sudandır bu günlərin,
Su içində görər hər nəyi.

Buludlar, ağaclar, quşlar
Titrəyər, itər içində qaraltılar kimi.
Günəş görünər bir anlığa,
Paslanmış, əski bir sikkə olar
Düşər dibindəki qaranlığa.

Gözləri sudandır bu günlərin,
Keçər içindən gündüz də, gecə də,
Bulanıq
Qaranlıq su rəngində.

## AĞDUMANLI DAĞLAR

Uzaqlaşdıqca yaşıllaşan
Ağdumanlı dağlardı görünümdə.

Uzun illərini
Bir gündə böyüyən bir ağac kimi
Bir istək böyüyürdü ürəyimdə:
Getmək bu dağlarla
Bu ağ dumanlarla!

Baxdım dörd yanıma,
Heç nə vermirdi bir xəbər
Bir cığırın olmasından.

Qırıq bir küzədən
Gizli-gizli sızan bir su kimi
Bir qorxu sızırdı hər nədən.

Döndüm gəldiyim yolumu.

## BİR GÖRÜNÜMÜN İKİ ZAMANI

1

Bağlanmışdı qamışa bir qayıq,
Bir iynəcə qanadınca yüngül
Bir şeh damlasınca şəffaf
Bir aydınlıq doldurmuşdu qaranlıqdan
Boşalmış içini.

Sıyrılaraq toranlıqdan
Açmışdı ağac-ağac
Qoynunu artan işıqlara
Gölün o tayında bir orman.

Hər nə unutmuşdu ağırlığını,
Hər nə çıxacaq kimiydi
Bir azdan
Bir quş kimi
Yumurtadan.

2

Bir qayıq yan almışdı qamışlıqda,
Enirdi içindən bir kişi.

Ağır, həzin və qurtarıcı
Bir musiqi yayılmışdı havaya,
Eşidilməyən,
Duyulan.

Uzaqlaşırdı bir-bir ağacları
Və itirdi böyüyən qaranlıqda
Gölün o tayında bir orman.

Əyilmişdi
Hər nəyi doldurmuş bir ağırlıqdan
Qayıqdan enən kişinin çiyinləri.